# VAHİD AMAL UĞRUNDA




**Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin həyatında yeni mərhələ - quruculuq, inkişaf, işğaldan azad edilmiş ərazilərimizin bərpası dövrü başlayıb. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev istər müharibə dövründə cəbhədən gələn qələbə xəbərlərini xalqa çatdırarkən, istər xarici mətbuata müsahibələrində, istər Azərbaycanın hərbi-siyasi, diplomatik Zəfərinin təsdiqi olan 10 noyabr üçtərəfli razılaşmasından sonra, istərsə də möhtəşəm Qələbə sevincini bölüşmək üçün işğaldan azad edilmiş şəhər və kəndlərimizə səfərləri zamanı bu əminliyi ifadə etmişdir ki, Qarabağ bölgəsində cənnət yaradacağıq. Tez bir zamanda Azərbaycan xalqı və bütün dünya işğaldan azad olunmuş, dirçəldilmiş şəhərlərimizi, kəndlərimizi görəcək, xarici qonaqlar bu ərazilərimizi ziyarət etməyə maraq göstərəcək, bir sözlə, inkişaf modeli dünyaya nümunə olan Azərbaycanın həyatında yeni mərhələ başlayacaq.**

## Bu gün Azərbaycanda heç zaman olmadığı qədər milli həmrəylik, xalq-iqtidar birliyi, ruh yüksəkliyi müşahidə olunur, ölkəmiz hərtərəfli inkişaf edir

Dövlət siyasətinin prioritetləri sırasında işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışının təmin edilməsi, bu regionun ölkənin ən abad guşələrindən birinə çevrilməsi mühüm yer tutur. Burada müasir həyatın ayrılmaz hissəsi olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə lazımi tədbirlər görülür.

Düşmən üzərində qazandığımız tarixi Zəfərin əbədiləşdirilməsi üçün vaxtilə öz doğma torpaqlarından köçkün düşmüş insanların yurd-yuvalarına qayıdışı böyük önəm kəsb edir. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş torpaqlarda dayanıqlı məskunlaşması ilə yanaşı, həmin ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında da bir körpü olacaq.

Azərbaycan, həmçinin təmiz ətraf mühit və "yaşıl" iqtisadiyyatı inkişaf etdirən ölkə kimi nümunəyə çevriləcək. Bunun üçün respublikamızın perspektiv iqtisadi inkişafı ilə bərabər, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin olunur. Strateji dövrdə bu prioritet daxilində iki məqsədin effektiv surətdə reallaşdırılması istiqamətində ciddi işlər aparılır ki, bunlardan biri yüksəkkeyfiyyətli ekoloji mühit, digəri isə "yaşıl enerji" məkanının yaradılmasıdır. Yəni ölkədə keyfiyyətli və təmiz ekoloji mühit qorunur, resurslardan səmərəli istifadə vacib amil kimi dəyərləndirilir.

**(davamı 5-ci səhifədə)**

**Respublika.- 2022-ci il.- 7 aprel.- S. 1.**

(əvvəli 1-ci səhifədə)

# VAHİD AMAL UĞRUNDA



## Bu gün Azərbaycanda heç zaman olmadığı qədər milli həmrəylik, xalq-iqtidar birliyi, ruh yüksəkliyi müşahidə olunur, ölkəmiz hərtərəfli inkişaf edir

Yaxın perspektivdə dünyanın inkişaf etmiş qabaqcıl ölkələrində alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin artacağı gözlənilir. Azərbaycanda da enerjidən səmərəli istifadə edilməsinə və yeni dayanıqlı enerji mənbələrinə üstünlük veriləcək. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsinə xüsusi həssaslıqla yanaşılır.

Qarşıdakı illərdə bütün dünyada uzun müddət ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olacaq. İqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılacaq. Bu məqsədlə ölkədə ümumi ərazidə yaşıllıqların payı artırılacaq.

İqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. Bu gün Azərbaycanda adambaşına düşən milli gəlirin artımı, insanların həyat səviyyəsinin ilbəil yaxşılaşması təmin edilir. Hər zaman olduğu kimi, vətəndaşların uzunömürlülüyü və sağlam həyat tərzi yenə də diqqət mərkəzindədir. Ölkəmizdə XXI əsrin tələblərinə uyğun təhsilin təşkili də prioritetlər sırasındadır. Çünki dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Cənab İlham Əliyev dəfələrlə qeyd edir ki, Azərbaycanda əsas hədəf neft kapitalını insan kapitalına çevirməkdir. Sirr deyil ki, insan kapitalının milli sərvətdə iştirak payının davamlı şəkildə məhz təhsil vasitəsilə artırılması mümkündür.

Vacib məqamlardan biri də qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanaraq iqtisadi inkişafa təkan verməsidir. Aydındır ki, yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bu məqsədlə neftdən asılılığın minimumlaşdırılmasını dövlətimiz həyata keçirilən siyasətin əsas hədəflərindən biri kimi müəyyənləşdirir.

Öz müdrik lideri ətrafında sıx birləşən Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirdi, ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. Prezident cənab İlham Əliyevin uzaqgörən siyasətinin məqsədi Azərbaycanın hərtərəfli inkişafı, xalqımızın firavan həyatı, ölkənin pozulmuş ərazi bütövlüyünün bərpası idi. Buna görə hər bir atılan addım Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması. 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident kimi 17 illik gərgin əməyinin nəticəsində Azərbaycanı ərazi bütövlüyünə qovuşdurdu, xalqımızı dünyada mübariz, döyüşkən və qalib xalq kimi tanıtdı.

Ali Baş Komandanımızın böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, rəşadətli və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi Vətən müharibəsində Azərbaycanın tam qələbəsini təmin edən həlledici amillərdir. O qələbə ki, Cəbrayılımızı, Füzulimizi, Zəngilanımızı, Qubadlımızı, Ağdamımızı, Kəlbəcərimizi, Laçınımızı, Hadrutumuzu, Suqovuşanımızı, Şuşamızı və bütövlükdə işğal altındakı bütün ərazilərimizi öz əbədi sahibinə - Azərbaycan xalqına qaytarmışdır.

Cənab İlham Əliyev hər zaman xalqa arxalanıb, xalqın dəstəyindən güc alaraq irəliyə addımlayıb. Cənab Prezident hər zaman yalnız uğur qazanıb, qələbə həmişə dövlət başçımızın yanında olub.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurlu inkişaf yolunda inamla addımlayır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu inkişaf strategiyası nəticəsində bu gün Azərbaycanda bütün sahələrdə mühüm nailiyyətlər əldə olunub, yeni-yeni uğurlara imza atılıb. Müxtəlif sahələr üzrə aparılan islahatlar, həyata keçirilən sosial layihələr, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın artırılması uğurlu inkişafımıza təkan verir. Dövlət başçımızın ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində mümkün olub. Bu gün cənab İlham Əliyev tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yürüdür, bütün məsələlərdə özünün qətiyyətli və cəsarətli mövqeyini ortaya qoyur. Milli maraqları təmin edən siyasətin yürüdülməsi Azərbaycanı beynəlxalq nüfuz baxımından xarakterizə edən əsas keyfiyyətlərdən biridir. Eyni zamanda Azərbaycanın öz torpaqları uğrunda inamla savaşa başlaması da müstəqil siyasətin təzahürüdür. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə sürətlə inkişaf edən, möhkəmləndirilən respublikamızın uğurlu hərbi əməliyyatları da güclü dövlətin ortaya qoyduğu reallıq idi. Prezident cənab İlham Əliyev 44 gün ərzində beynəlxalq təzyiqləri layiqincə dəf etdi. Ən əsası, Ali Baş Komandan bir daha bütün dünyaya sübut etdi ki, heç bir qüvvə Azərbaycanı özünün haqq yolundan döndərə bilməz. Vətən müharibəsindəki möhtəşəm qələbə Azərbaycan Prezidenti İlham Əliyevin xalqa nə qədər bağlı olduğunu, onun dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etdiyini, xalqın isə cənab Prezidentin ətrafında sıx birləşdiyini bir daha əyani şəkildə sübut etmiş oldu.

**Emin QASIMOV,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 7 aprel.- S. 5.**